

■Əbülfəz ÜLVİ

## ÖMÜR ESKİZİ

Qırışlar artdıqca eyləyir qiyam,
Biri, o birini dolaşıq salır.
Bəlkə elə bilir təbiət qağam,
Bu yolla alnıma yaraşıq salır.

Ahıllıq gəldikcə tuşuma mənim,
İstəmir canımda tez hiss olunsun.
Sanki əhəng səpir başıma mənim,
Saçlarım dəridən asan yolunsum.

Hələlik dursa da ayaqlar mətin,
Baxışlar hey salaməlik axtarır.
Baba çəliyinə gülən xislətim,
İndi özü üçün çəlik axtarır.

Bəzən danışanda donur sözlərim,
Yaşım coxaldıqca, ömür azalır.
Hərdən kövrəklikdən dolan gözlərim,
Elə bil bu suyla dəstəmaz alır.

Qiymətin almağa qalxır əməllər,
Hər gün həyatıma öz izin çəkir.
Bəlkə qırış deyil, ötüşən illər,
Alnıma ömrümün eskizin çəkir.

## BAĞIŞLAMIR

Yaşım saçlarıma dəni sevdirir,
Tökülür, deyəsən saç bağışlamır.
Mənim, öz mənliyim məni sevdirir,
Amma suçluya da suç bağışlamır.

Dil, dilçək qazanır söz qayəsiylə,
Ocaq isti olur köz sayəsiylə,
Nifrət, dağ da aşar öz həyasıyla,
Sevgi hamar sevir, dik bağışlamır.

Biri sərvət sevir, biri var sevir,
Aqil aqilliyi, sarı, sar sevir,
Canım inam sevir, etibar sevir,
Başqa kimsəyə də şəkk, bağışlamır.

Yaxşı tanıyıram, yaxşı-yamanı,
İnsafım verməyib əldən imanı,
Məni, qana-qana qanmaz sananı,
Xislətim baş qoşmur, dərk bağışlamır.

Xəyanət eylədi mənə bir adam,
Sirrimi verdiyim, oldu kir adam
Bəlkə mənə qalsa, mən, bağışlaram,
Qəlbim xəyanəti heç, bağışlamır.

## MƏN QURD DA OLACAĞAM

Məni doğandan anam,
Mənə namus, ar verdi.
Məhəbbət oldu sonam,
Sədaqəti yar verdi.
Belə qurdum ömrümü,
Belə yaşadım, hərgiz.
Belə yordum ömrümü,
Belə daşıdım hərgiz.
Mənə pislik edəni,
Bağışladım, əfv etdim.
Könlümü güzəştlərə,
Ətalara rəf etdim.
Kaş bir az da qurdluğu,
Öyrədərdilər mənə.
Qoymazdım Qarabağım,
Laçınım düşsün çənə.
Anam öyrətməsə də,
Daha bu gündən belə,
Düşmənin başı üstdə,
Bulud da olacağam,
Vətən, torpaq naminə,
Mən qurd da olacağam.

## ALDATMAQ DEYİL?

Yenə danışırsan, durub üzbəüz,
Deyirsən aldanmaq xoşuna gəlmir,
Canım,  doğuşundan nə yalan, nə düz,
Heç biri dünyaya boşuna gəlmir.

Dünyanın işinə gəl indi inan,
Görürsən cavabda sorğu görünür.
Bəzi doğruluqda ən qatı yalan,
Bəzən də yalanda doğru görünür.

Özü olmayana, özəl deyəndə,
Sevincdən uçmağa qanadı olmur.
Çirkinə  "hamıdan gözəl" deyəndə,
Canına yayılır, iradı olmur.

Qoy deyim özünə, sən özün də bil,
Sözün gah acıdır, gah da bal dadır.
Səncə, öz aldatman, aldatmaq deyil?
Məni hər baxışın, bir cür aldadır.